# Sosial strukturda baş verən dəyişikliklərin transformasiyası

**Səbinə Muradova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*AMEA-nın Fəlsəfə İnstitutu*
**E-mail:** turalsabina99@gmail.com

**Rəyçilər:** t.ü.f.d., dos. S.F. Əliyeva,
t.ü.f.d. T.N. Quluzadə

**Açar sözlər:** cəmiyyət, paradiqma, qrup, sosial
**Ключевые слова:** общество, парадигма, группа, социальная
**Key words:** society, paradigm, group, social

Cəmiyyətin sosial dəyişikliklərində sosial mobillik böyük rol oynayır, Mobillik dedikdə ölçülərin hər hansı birində: varidat, idarəetmə sistemində mövqelər (hakimiyyət resursu), status sahəsində fərdin yerdəyişmələri nəzərdə tutulur. Hər bir ölçünün sosial nərdivanı vardır ki, onun da pillələrində fərdlər yerləşir. Göstərilən bütün sosial ölçülər bir-biri ilə qarşılıqlı əlaqədədir. Sosial strukturun bu xüsusiyyəti cəmiyyətdə bütün üç ölçüdə mövqelərin ciddi surətdə müəyyən birləşməsi, uyğunluğu ilə səciyyələnən sosial qrupları fərqləndirməyə imkan verir.

Müasir nəzəriyyələrdə "alternativ baxış tarixin yaradılması" (modernləşmə nəzəriyyələri – köhnə və yeni nəzəriyyələr, inkişaf, müvazinət, münaqişə, mədəni müvazinət nəzəriyyələri, hərəkət, strukturlaşma, fəaliyyət əmsalı nəzəriyyələri və s.).

Ç.Tilli sosial dəyişikliyi bir tam kimi, daxilən möhkəm birləşmiş fenomen kimi nəzərdən keçirir. İ.Uollerstayn sosial dəyişikliklərə alterativ baxışın zəruriliyi qeyd edir ki, bu da öz növbəsində onu göstərir ki, inkişaf nəzəriyyəsinin əsas versiyaları təkamülçülük və tarixi materializm artıq sosial təfəkkür tarixinə məxsusdurlar.

İnsanlar yalnız struktur determinasiyasının daşıyıcılarıdırlar. Rasionalis nəzəriyyələrdə sosial dəyişiklik aktiv fərdlərin "tarixin istehsalı" kimi məqsədyönlü fəaliyyətinin məhsulu, bəhrəsi kimi nəzərdən keçirilir. Sosioloqların çoxu bu əqidədir ki, heç bir sosioloji paradiqmanın ümumi nəzəriyyəsi sosial dəyişikliklərin təhlili üçün kifayət qədər adekvat ola bilməz. Aksent getdikcə daha tez-tez bütövlükdə cəmiyyətin transformasiyasına deyil, ayn-ayn institutların, sosial qrupların, konkret ideyaların təhlilinə və izahı üzərinə keçirilir. İnsanların gündəlik həyatındakı tədrici dəyişikliklərin cəmiyyətdəki sosial qaydaya təsirini öyrənən praktikalar nəzəriyyələri getdikcə daha geniş yayılmaqdadır.

Sosial mobilliyin çox mühüm parametrlərindən biri onun istiqamətliliyidir. Sosial mobilliyni iki əsas tipi vardır: üfüqi və şaquli.

Üfiqi sosial mobillik və ya yerdəyişmə fərdin yaxud qrupun bir sosial strukturdan statusu (sosial mövqeyi) itirmədən başqasına keçməsi deməkdir. Üfiqi mobilliyə nümunə işçinin bir firmadan başqasına eyni vəzifəyə keçməsini göstərəmək olar.

Şaquli sosial mobillik fərdin və ya sosial qrupun (təbəqənin, sinfin) ictimai ierarxiyanın bir səviyyəsindən başqasına keçməsini göstərir.

Yerdəyişmənin istiqamətindən asılı olaraq şaquli sosial mobilliyin iki tipini ayırd etmək olar: yüksələn və enən. Öz növbəsində, yüksələn mobillik iki əsas formada olur:

1) fərdin ierarxiyanın aşağı səviyyəsindən daha yüksək səviyyəsinə nüfuz etməsi fərdi

yüksələn mobillik;

2) fərdlərin yeni qrup yaratması və bütün qrupun sosial strukturun daha yüksək səviyyəsinə nüfuz etməsi qrup halında yüksələn mobillik.

Buna müvafiq enən mobilliyin də iki forması vardır:

1) fərdin daha yüksək sosial mövqedən onun əvvəllər mənsub olduğu qrupu dağıtmadan daha aşağı səviyyəyə enməsi, fərdi enən mobillikdır.

2) müəyyən bir qrupun birliyinin dağılması və onun başqa qrupların fonunda rütbəsinin enməsi-qrup halında enən mobillikdir.

Nəzəri cəhətdən şaquli sosial mobilliyi sifra bərabər olan stratifikasiyalı cəmiyyət ola bilər. Bu o deməkdir ki, belə cəmiyyətin daxilində yüksəlmə və enmə yoxdur; bu cəmiyyət üzvlərinin heç fərd doğulduğu sosial təbəqəyə həmişəlik təhkim edilib. Belə cəmiyyətdə bir təbəqəni o birindən ayırma hüdudu tamamilə müdaxilə edilməzdir. Onlarda hər hansı təbəqə nümayəndələsinin digərinə keçə biləcəyi heç bir imkan yoxdur. Belə cəmiyyəti tam qapalı cəmiyyət kimi müəyyən etmək olar.

Daxili strukturun nəzəri cəhətdən əks tipi şaquli mobilliyin olduqca intensiv və ümumi xarakter daşıyan tipidir. Burada bir pillədən digərinə keçmə imkanları böyükdür. Adamlar eyni bir "sosial pıllədə" uzun müddət dayanmadan "yuxarı və aşağı" hərəkət edirlər. Bu tip cəmiyyəti açıq cəmiyyət kimi müəyyən etmək olar. Cəmiyyətin hər iki tipi-qapalı və açıq elmi abstraksiya, ideal modeldir; müxtəlif tarixi dövrlərdə real surətdə olan mövcud cəmiyyətdə şaquli mobilliyin intensivliyi və ümumiliyi dəyişir. Belə ki, Qədim Hindistanda kastalar quruluşu qapalı cəmiyyət, Fransa isə sosial inqilablar dövründə açıq cəmiyyət tipinə daha yaxındır.

Şaquli mobillik cəmiyyətdə müəyyən dərəcədə mövcud olduğuna görə ictimai ierarxiyanın səviyyələri arasında fərdlərin bir təbəqədən başqasına yuxan və ya aşağı yerləşdirilməsinin yollan olmalıdır. Onlar "sosial mobillik kanalları" adlanır. Bu, insanın ictimai ierarxiyada öz vəziyyətini dəyişdirdiyi sosial institutlar və təşkilatlardır. Sosial mobilliyin əksər cəmiyyətlərdə mövcud olan ən mühüm kanalları ordu, kilsə, məktəb, siyasi, iqtisadi və ailədir. Şübhəsiz ki, bu kanallardan başqa ayn yolar da vardır, lakin onlar az əhəmiyyətlədir.

Bütün dövrlərdə bu institutların hər biri müəyyən cəmiyyətdə konkret anda bu və ya digər dərəcədə mühüm rol oynayıb. Ordu müharibə və sosial sarsıntılar dövründə böyük rol oynayır, lakin sülh şəraitində onun əhəmiyyəti nisbətən azalır. Orta əsrlərdə kilsənin əhəmiyyəti böyük idi. Hazırda isə onun əhəmiyyəti xeyli azalmışdır.

Öz konkret formalarını dəyişən şaquli mobillik kanalları stratifıkasiyalı cəmiyyətdə mövcuddur və mühüm əhəmiyyət kəsb edir.

Müasir cəmiyyətdə sosial strukturu sabit, davamlı hadisə kimi nəzərdən keçirmək mümkün deyildir. Bu, cəmiyyətin təkrar istehsal prosesi deməkdir.

Mülkiyyət, bölgü, əməyin ictimai təşkili münasibətləri sistemində, sosial mobilliyin meylləri və istiqamətlərində radikal dəyişikliklər davam etməkdədir. Bu da yeni sosial birliklərin, onların qarşılıqlı əlaqələrinin, iyearxiyasının meydana gəlməsinə gətirib çıxarır.

Cəmiyyətdə müşahidə olunan transformasiya prosesləri çox və ya az dərəcədə üç qrup amillərlə şərtlənmişdir.

Birinci qrup amillər — burada dünya məkanının qloballaşması, bir tərəfdən iqtisadiyyat, siyasət, təhsil, informasiya sayəsində inteqrasiya, digər tərəfdən, dezinteqrasiya kimi ən ümumi amillərdən söhbət gedir. Bu proseslər bütün cəmiyyətlərdə, onların bütün səviyyələrində müşahidə olunur.

Amillərin ikinci bazar münasibətlərinə əsaslanan ictimai sistemə keçid prosesində olan

ölkələr üçün ümumidir. "Transformasiya" anlayışı çox vaxt baş verən coşqun proseslərin ifadə edilməsi üçün işlədilir. Bu terminlə, eləcə də, "modemizasiya" termini ilə baş verən dəyişikliklərin ideoloji xarakter daşımadığını nəzərə çatdırmağa çalışırlar .

Lakin əslində onların hər ikisi ideoloji ruha malikdir. Məsələn, əgər müəyyən ölkələr üçün tranformasiya dünənki sosializm ölkələri səmərəli inkişaf etməkdə olan demokratik vətəndaş cəmiyyətlərinin sırasına daxil olsunlar deyə, hər cür müdafiə olunmalı olan pozitiv prosesdirsə, digər ölkələr transformasiyanı xaricdən (Qərb tərəfindən) qəbul etdirilmiş bu cəmiyyətlərin iqtisadiyyatının, sosial quruluşunun və mənəvi əsaslarının qəfil iflicinə səbəb olmuş mənfi, dağıdıcı proses kimi nəzərdən keçirirlər. Transformasiya prosesinin xüsusiyyətlərinin müxtəlifliyi hələlik onu bütövlükdə dərindən təhlil etməyə və üstəlik də onun əss istiqamətini heç olmazsa, aşkara çıxarmağa imkan vermir. Buna görə də transformasiyanın "labüd surətdə kapitalizmə qayıtma" kimi müasir

Qərb cəmiyyətləri üçün tipik olan ictimai institutların və həyat tərzinin formalaşması prosesi kimi geniş yayılmış anlayış düzgün olmayaraq bir tərəfli təsəvvür edilir.

Amillərin üçüncü qrupu müstəsna dərəcədə hər bir dövlətdə mövcud olan millətin milli mentalitetinə əsaslanır. Hər şeydən əvvəl ölkənin yenidənqurulması sahəsində nəzəri və praktiki cəhətdən əsaslandırılmış siyasətin olmamasını qeyd etmək lazımdır. Bu səbəbdən də ölkədə baş verən proseslər kortəbii, qeyri-ardıcıl şəkildə baş verir. Son illərdə mövcud olan tədqiqatlar da sosial strukturun son dərəcə qeyri-sabit olmasını, qeyri-müəyyənliyini qeyd olunur. Makrosəviyyədə və sosial istehsal strukturları səviyyəsində sosial dezinteqrasiya və diferensiasiyanın yem formaları meydana gəlir. Mülkiyyət formalarının nisbəti çıxır, digərləri yaranır, üçüncülər parçalanırlar, dördüncülər isə sosial rollarını və statuslarını dəyişdirilir və s.

Hazırki vaxtda sosial strukturun transformasiyanın əsas meyllən əmlak diferensasiyası ilə müşayiət olunan sosial təbəqələşməyə doğru

1) muzdla işləyənlər (muzdlu işçilər),

2) muzdla işləməyənlər (bunlar müstəqil məşğul olan işverənlərdir, istehsal kooperativlərinin üzvlərdir).

Cəmiyyətin sosial transformasiyasını bu gün stratifikasiya sistemində əvvəllər mövcud olmamış mövqelərin — hər şeydən əvvəl iri və xırda sahibkarlar sinfinin, "yeni yoxsullar" təbəqəsinin işsizlər ordusunun meydana gəlməsi, eyni zamanda onların yeni status-rol funksiyalarına adaptasiyası, sosial və şəxsi identikliyin yenidən qiymətləndirilməsi səciyyələndirir. Cəmiyyətdə diferensiasiya çoxaldıqca əhalinin müxtəlif təbəqələri arasında qütbləşmə də dərinləşir. Nəticədə sosial qrupların və təbəqələrin nəinki təkcə sosial vəziyyətində həmdə həyat şəraitində müxtəliflik daha kəskin şəkildə özünü göstərir.

Bütün bu yuxanda gördüyümüz sosial strukturda baş verən dəyişiklikləri nəzərə alaraq belə nəticəyə gəlmək olar. İnsanların maddi vəziyyətlərinə görə fərqlənən aşağıdakı qrupları göstərmək olar.

I qrup — Zənginlər. Bu qrupun üzvləri yüksək həyat səviyyəsini təmin etmək üçün kifayət qədər maddi vasitələrə, imkanlara malikdirlər.

II qrup — Ortabablar. Bu qrupun üzvləri kreditin və ya yardımçı vasitələrin köməyi ilə həyat şəraitini orta səviyyədə saxlamaq imkanına malikdirlər.

III qrup — Aztəminatlılar. Bu qrupun üzvləri yalnız gündəlik xərcləri minimum vasitələrlə, ən aşağı formada həyata keçirmək imkanına malikdirlər.

IV qrup — Yoxsullar. Bu qrupun üzvləri yalnız hesablarını təmin etmək üçün çalışırlar və bəzən buna da imkanları çatmır.

Azərbaycan cəmiyyətinin sosial strukturunun dəyişməsinin müsbət meylləri ilə yanaşı

mənfi meylləri daha çox artmışdır. Bazar münasibətlərinin sərt qanunları ziyalılara daha çox təsir edir. Zehni əmək işçilərin maddi vəziyyətində çətinliklər, onların fəaliyyətində inamsızlıq yaradır. Ziyalıların cəmiyyətdə nüfuzunda arzuolunmaz hallar baş verir. Nəticədə yüksək nüfuzlu mütəxəssislərin respublikadan kənara axını müşahidə olunur.

Beləliklə, həddən artıq bərabərsizlik cəmiyyətin sabitliyinin pozulmasına doğru aparır.

**Məqalənin aktuallığı.** Cəmiyyət daim inkişafdadır və müşahidə olunan dəyişikliklərdə sosial mobillik mühüm əhəmiyyət kəsb edir. Əgər nəzərə alsaq ki, sosial mobillik özü mürəkkəb bir prosesdir, onda bu prosesin təhlili baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yenilyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə sosial həyatda baş verən sosial dəyişiklik prosesinə xarici ölkə alimlərinin yanaşmaları verilir, sosial mobilliyin çox mühüm parametr və tipləri göstərilir, eləcə də cəmiyyətdə müşahidə edilən transformasiya proseslərinin əsas amilləri araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. Bakı, 1997.
2. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2010.
3. Fəlsəfi ensiklopedik lüğəti. Bakı, 1997.
4. Qolonkova L.F, Akuliç M.M, Kuznetsov V.N. Ümumi sosiologiya. Bakı, 2007.
5. Hacıyev Z. Fəlsəfə. Bakı, 2012-ci il.
6. İmanov H. Fəlsəfənin əsaslan. Bakı, 2007.
7. Sosiologiya. Bakı, 2005.
8. Сорокин П. Человек. Цивилизация. Общество. М., 1992.

**С. Мурадова**

## Трансформация изменений в социальной структуре

## Резюме

Одной из основных характеристик социальных изменений является несоответствие между изменениями в разных сферах общества в разных обществах, между разными секторами и секторами фермерских хозяйств, между разными социальными группами и слоями, между разными регионами, разными странами и народами. Изменения в социальной структуре приводят к трансформации всей системы. В этом случае социальные изменения считаются дисфункцией, а не нормальным состоянием общества. Основные изменения в обществе связаны с конфликтами в социальной структуре, а деятельность людей ничего не определяет.

**S. Muradova**

## Transformation of changes in social structure

## Summary

One of the main characteristics of social change is the incongruity between changes in different areas of society within different societies, between different sectors and sections of farms, between different social groups and strata, between different regions, different countries and peoples. Changes in the social structure lead to the transformation of the entire system. In this case, social change is considered a dysfunction rather than a normal state of society. Major changes in society are linked to conflicts in the social structure, and the activities of people do not determine anything.

**Redaksiyaya daxil olub:** 21.09.2019